Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 23 ” aprel tarixli
132 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Mülki pilotsuz uçuş aparatlarının istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi**

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun (bundan sonra – Qanun) 60.1-ci, 60.2-ci və 60.5-ci maddələrinə uyğun olaraq hazırlanmışdır və mülki pilotsuz uçuş aparatlarının (bundan sonra – PUA) Azərbaycan Respublikasında istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Bu Qaydaların müddəaları aşağıdakı PUA-lara şamil edilmir:

1.2.1. maksimal qalxma kütləsi 0,25 kq-dən az olan və fərdi məlumatları toplamaq imkanına malik olan cihazlarla təchiz olunmamış, habelə uşaqların istifadəsi üçün nəzərdə tutulmuş oyuncaq PUA-lar;

1.2.2. uçuş zamanı pilot (operator) tərəfindən idarə edilməsi mümkün olmayan tam avtonom PUA-lar.

1.3. PUA-ların qeydiyyatı, eləcə də əməliyyat icazəsinin, PUA sistemlərinin (bundan sonra – PUAS) istismarçısı sertifikatının və pilot (operator) şəhadətnaməsinin verilməsi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – Agentlik) tərəfindən həyata keçirilir.

1.4. PUAS-ın istismarı ilə bağlı fəaliyyət elektron portal vasitəsilə həyata keçirilir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **coğrafi zonanı təyinetmə funksiyası** – hava məkanı məhdudiyyətlərinin potensial pozulmasını aşkarlayan və pilotu (operatoru) bu barədə xəbərdar edən funksiya;

2.1.2. **əməliyyat icazəsi** – PUAS istismarçısına “B” kateqoriyasına aid PUAS əməliyyatını həyata keçirmək hüququnu verən sənəd;

2.1.3. **faydalı yük** – PUA-ya quraşdırılmış və ya onun üzərinə əlavə olunmuş, habelə onun idarə edilməsi üçün istifadə olunmayan, eləcə də PUA-nın planerinin, mühərrikinin və ya pərinin bir hissəsi olmayan, rabitə avadanlığı da daxil olmaqla cihaz, mexanizm, avadanlıq, hissə, aparat və ya ləvazimat;

2.1.4. **maksimal qalxma kütləsi** istehsalçı tərəfindən müəyyən edilmiş, faydalı yük və yanacaq daxil olmaqla PUA-nın istismarına yol verilən maksimum kütləsi;

2.1.5. **"məni təqib et" rejimi** – əvvəlcədən təyin edilmiş sabit məsafə çərçivəsində PUA-ya onun pilotunu (operatorunu) təqibetmə imkanını verən PUAS-ın istismar rejimi;

2.1.6. **məsafədən identifikasiya sistemi** – PUAS əməliyyatı zamanı PUA-nın qeydiyyat sertifikatının nömrəsi daxil olmaqla PUA haqqında məlumatların onunla fiziki təmasda olmadan əldə edilməsini və həmin məlumatların yerli yayımlanması imkanını təmin edən sistem;

2.1.7. **modifikasiya –** PUA-nın istehsalçısı tərəfindən müəyyən edilmiş dizaynında dəyişiklik;

2.1.8. **nöqsan** – bu Qaydaların tələblərinin pozuntusu;

2.1.9. **pilot (operator) şəhadətnaməsi** – pilota (operatora) PUAS əməliyyatını həyata keçirmək hüququnu verən sənəd;

2.1.10. **PUA ilə PUAS əməliyyatının iştirakçısı olmayan şəxs arasında məsafə** – PUA-nın şaquli düşməsi zamanı yerə dəyəcəyi mövqe ilə PUAS əməliyyatının iştirakçısı olmayan şəxsin mövqeyi arasında olan məsafə;

2.1.11. **PUA-nın sahibi** – PUA üzərində mülkiyyət hüququna malik olan fiziki və ya hüquqi şəxs;

2.1.12. **PUA-nın seriya nömrəsi** – PUA-nın model seriyasını fərqləndirən, eləcə də PUA-nın istehsalı və istismarı zamanı izlənilə bilməsini təmin edən rəqəm, hərf və ya simvolların fərqli kombinasiyası;

2.1.13. **PUAS istismarçısı (bundan sonra – istismarçı)** – bir və ya bir neçə PUAS-ı istismar edən və ya belə xidməti təklif edən fiziki və ya hüquqi şəxs;

2.1.14. **PUAS istismarçısı sertifikatı (bundan sonra – istismarçı sertifikatı)** – PUAS əməliyyatlarını həyata keçirmək üçün verilmiş sənəd;

2.1.15. **PUA istehsalçısı (bundan sonra – istehsalçı)** - mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq istifadə və ya satış üçün PUAS-ı istehsal edən fiziki və ya hüquqi şəxs;

2.2. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Qanun, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

## 3. PUA-ların qeydiyyatı

3.1. Hər bir PUA-nın sahibi PUA-nı Azərbaycan Respublikasına idxal etməzdən əvvəl və xüsusi icazə aldıqdan sonra və ya Azərbaycan Respublikasında istehsal etdikdən sonra 10 (on) iş günü ərzində onun dövlət qeydiyyatına alınması üçün müraciət etməlidir.

3.2. PUA-nın dövlət qeydiyyatına alınması üçün PUA-nın sahibi aşağıdakı məlumatları və sənədləri şəxsən və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla Agentliyə təqdim etməlidir:

3.2.1. hüquqi şəxslər üçün adı, ünvanı, qeydiyyatı haqqında dövlət reyestrindən çıxarışın surəti, elektron ünvanı və əlaqə nömrəsi;

3.2.2. fiziki şəxslər üçün adı, atasının adı, soyadı, ünvanı, elektron ünvanı, əlaqə nömrəsi, eləcə də şəxsiyyət vəsiqəsinin və ya əcnəbi (və ya vətəndaşlığı olmayan) şəxs olduqda bunu təsdiqləyən sənədin surəti;

3.2.3. PUA-nın istehsalçısı və modeli;

3.2.4. PUA-nın istehsal ölkəsi və tarixi;

3.2.5. PUA-nın istehsalçı tərəfindən müəyyən edilmiş təyinatı;

3.2.6. PUA-nın seriya nömrəsi;

3.2.7. PUA-nın və üzərində onun seriya nömrəsinin olmasını təsdiq edən rəngli fotoşəkilləri;

3.2.8. PUA-nın texniki xüsusiyyətlərini, texniki xidmət tələblərini, istifadə qaydalarını və PUA-nın istismarı üçün zəruri olan digər məlumatları özündə ehtiva edən istehsalçı təlimatları;

3.2.9. üçüncü şəxslər qarşısında mülki məsuliyyət sığortasına dair sənəd;

3.2.10. mülki dövriyyəsinə xüsusi icazənin surəti;

3.2.11. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

3.3. Bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulmuş sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar PUA-nın sahibindən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi PUA-nın sahibinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya PUA-nın sahibi tərəfindən təmin edilir.

3.4. Bu Qaydaların 3.2-ci bəndində qeyd olunan məlumatlarda və sənədlərdə çatışmazlıqlar olmadıqda, Agentlikdə sənədlər qeydə alındığı gündən sonra 15 (on beş) iş günündən gec olmayaraq qeydiyyat sertifikatının verilməsi və ya bu Qaydaların 12-ci hissəsinə uyğun olaraq verilməsindən imtina edilməsi barədə qərar qəbul edilir.

3.5. Təqdim edilmiş (bu Qaydaların 3.3-cü bəndinin müddəaları nəzərə alınmaqla) məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, Agentlik tərəfindən bu barədə PUA-nın sahibinə 3 (üç) iş günündən gec olmayaraq məlumat verilir. PUA-nın sahibi çatışmazlıqları aradan qaldırdıqda, məlumat və sənədləri Agentliyə təkrar təqdim etdikdən sonra müraciətə təkrar baxılır və qeydiyyat sertifikatının verilməsi və ya verilməsindən imtina barədə müvafiq qərar qəbul edilir. PUA-nın sahibi çatışmazlıqları 5 (beş) iş günü ərzində aradan qaldırmadıqda müraciət baxılmamış saxlanılır.

3.6. Qeydiyyat sertifikatının verilməsi haqqında qərar qəbul edildikdə, PUA-nın sahibinə 5 (beş) il müddətinə Agentlik tərəfindən bu Qaydaların 1 nömrəli əlavəsində göstərilən qeydiyyat sertifikatı, onun verilməsindən imtina edildikdə isə bu barədə qərar 3 (üç) iş günü müddətində təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Hər bir PUA-nın eyni vaxtda yalnız bir qeydiyyat sertifikatı ola bilər.

3.7. Qeydiyyat sertifikatını aldıqdan sonra PUA-nın sahibi bu Qaydaların 3.2-ci bəndində qeyd olunan məlumat və sənədlərdə hər hansı bir dəyişiklik baş verdikdə, bu

barədə Agentliyə 5 (beş) iş günü ərzində məlumat (bu Qaydaların 3.3-cü bəndinin müddəaları nəzərə alınmaqla) verməlidir. Müraciətə daxil olduğu gündən 15 (on beş) iş günü ərzində Agentlik tərəfindən baxılır və qeydiyyat sertifikatına müvafiq dəyişiklik edilməsi və ya edilməməsi haqqında qərar qəbul edilir.

3.8. Qeydiyyat sertifikatı üçüncü şəxslərə ötürülə bilməz.

3.9. PUA-nın sahibi qeydiyyat sertifikatının nömrəsinin PUA-nın üzərində aydın şəkildə əks olunmasını, habelə PUA-nın məsafədən identifikasiya sistemi mövcud olduqda qeydiyyat sertifikatının nömrəsinin bu sistemə yüklənməsini təmin etməlidir.

3.10. Qeydiyyata alınmış PUA-ya modifikasiya edilə bilməz.

3.11. PUA-nın sahibi qeydiyyat sertifikatının etibarlılıq müddətinin bitməsinə ən azı 30 (otuz) iş günü qalmış bu Qaydaların 3.2-ci bəndinə uyğun olaraq PUA-nın təkrar qeydiyyata alınması üçün Agentliyə müraciət etməlidir.

3.12. PUA-nın sahibi qəbul olunan qərardan və ya hərəkətlərdən (hərəkətsizlikdən) inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilər.

## 4. PUAS əməliyyatlarının kateqoriyaları

4.1. Açıq məkanda həyata keçirilən PUAS əməliyyatları xüsusiyyətlərindən və potensial olaraq yarada biləcək risklərdən asılı olaraq aşağıdakı kateqoriyalara bölünür:

4.1.1. “A” kateqoriyası – bu kateqoriyaya aid PUAS əməliyyatının həyata keçirilməsi üçün yalnız qeydiyyat sertifikatının və pilot (operator) şəhadətnaməsinin alınması tələb olunur;

4.1.2. “B” kateqoriyası – bu kateqoriyaya aid PUAS əməliyyatının həyata keçirilməsi üçün qeydiyyat sertifikatının və pilot (operator) şəhadətnaməsinin, eləcə də əməliyyat icazəsinin və ya istismarçı sertifikatının alınması tələb olunur.

4.2. PUAS əməliyyatının “A” kateqoriyasına aid edilməsi üçün aşağıdakı şərtlər təmin edilməlidir:

4.2.1. əməliyyat aşağıdakılara malik PUA ilə həyata keçirilməlidir:

4.2.1.1. maksimal qalxma kütləsi 0,25 kq-dən yuxarı və 25 kq-dən az olan;

4.2.1.2. yalnız elektrik enerjisi ilə qidalanan;

4.2.1.3. PUA-nın və onun məsafədən idarə edilməsi üçün avadanlığın enerji səviyyəsini davamlı şəkildə izləmək və onun aşağı həddə çatması barədə pilota (operatora) xəbərdarlıq etmək imkanına malik olan;

4.2.1.4. maksimal qalxma hündürlüyünün yuxarı həddi 120 metrə qədər olan və ya pilot (operator) tərəfindən 120 metrə qədər hündürlük həddi təyinetmə imkanı verən sistemlə təchiz olunan;

4.2.1.5. PUA və onun məsafədən idarə edilməsi üçün avadanlığı arasında rabitənin itirilməsi zamanı rabitəni bərpa etmə, yaxud avtomatik eniş imkanlarına malik olan;

4.2.1.6. coğrafi zonanı təyinetmə funksiyası ilə təchiz olunan;

4.2.1.7. məsafədən identifikasiya sistemi ilə təchiz olunan;

4.2.2. uçuş zamanı PUA yer səthindən maksimum 120 metr hündürlükdə saxlanılmalıdır;

4.2.3. uçuş zamanı PUA ilə PUAS əməliyyatının iştirakçısı olmayan şəxs arasında məsafə 30 metrdən az olmamaq şərtilə, PUA-nın yer səthindən hündürlüyü qədər saxlanılmalıdır;

4.2.4. uçuş zamanı "məni təqib et" rejimi aktivləşdirildikdə, PUA və pilot (operator) arasındakı məsafə 50 metrdən çox olmamalıdır;

4.2.5. PUA insanların toplaşdığı (izdihamlı olduğu) yerin üzərindən uçurulmamalıdır;

4.2.6. PUA "məni təqib et" rejimində olmadıqda, pilot (operator) uçuş zamanı hər hansı əlavə müşahidə avadanlığından istifadə etmədən PUA ilə birbaşa, fasiləsiz vizual əlaqə saxlamalıdır;

4.2.7. uçuş zamanı pilot (operator) PUA-nı özündən elə bir məsafədə saxlamalıdır ki, PUA-nı aydın görərək onunla maneələr arasındakı məsafəni düzgün qiymətləndirməlidir;

4.2.8. PUA təhlükəli yüklərin daşınması üçün istifadə edilməməli, habelə uçuş zamanı PUA-dan hər hansı yük atılmamalıdır;

4.2.9. uçuşlar gündüz vaxtı və açıq hava şəraitində keçirilməlidir;

4.2.10. pilot (operator) eyni zamanda yalnız bir PUA-nı idarə etməlidir;

4.2.11. uçuş zamanı pilot (operator) hərəkət edən nəqliyyat vasitəsində olmamalıdır.

4.3. PUAS əməliyyatı bu Qaydaların 4.2-ci bəndində qeyd olunan şərtlərin hər hansı birinə cavab vermədikdə "B" kateqoriyasına aid edilir və yalnız qeydiyyat sertifikatının və pilot (operator) şəhadətnaməsinin, həmçinin əməliyyat icazəsi və ya istismarçı sertifikatı əsasında həyata keçirilir.

4.4. Tam qapalı məkanda həyata keçirilən PUAS əməliyyatları heç bir kateqoriyaya aid edilmir. Bu cür PUAS əməliyyatının keçirilməsi üçün yalnız qeydiyyat sertifikatının mövcud olması yetərlidir.

## 5. Əməliyyat icazəsi

5.1. Əməliyyat icazəsi müəyyən edilmiş tarixlərdə keçiriləcək bir neçə PUAS əməliyyatı üçün nəzərdə tutula bilər.

5.2. Əməliyyat icazəsinin alınması üçün istismarçı aşağıdakı məlumatları və sənədləri şəxsən və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla Agentliyə təqdim etməlidir:

5.2.1. istismarçının adı, ünvanı, elektron ünvanı və əlaqə nömrəsi, hüquqi şəxs olduqda qeydiyyat haqqında dövlət reyestrindən çıxarışın surəti, fiziki şəxs olduqda isə adı, atasının adı, soyadı, eləcə də şəxsiyyət vəsiqəsinin və ya əcnəbi (və ya vətəndaşlığı olmayan) şəxs olduqda bunu təsdiqləyən sənədin surəti;

5.2.2. istismarçının PUA uçuşlarının idarə edilməsi və əlaqələndirilməsi mərkəzi ilə (bundan sonra – mərkəz) əlaqə yaratdığını təsdiq edən arayış;

5.2.3. bu Qaydaların 5.3-cü bəndinə uyğun hazırlanmış və istismarçı və ya səlahiyyətli şəxsi tərəfindən imzalanmış risklərin qiymətləndirilməsi.

5.3. Risklərin qiymətləndirilməsi keçiriləcək PUAS əməliyyatına dair aşağıdakı məlumatları özündə ehtiva etməlidir:

5.3.1. məqsəd;

5.3.2. başlama və başa çatma tarixləri;
5.3.3. PUAS əməliyyatının iştirakçıları və onların səriştəsi;
5.3.4. istifadə ediləcək PUA-ların qeydiyyat sertifikatlarının nömrələri;
5.3.5. coğrafi zona və onun xüsusiyyətləri;
5.3.6. PUAS əməliyyatının xüsusiyyətləri;
5.3.7. havada və yerdə yarana biləcək risklər;
5.3.8. risklərin azaldılması üçün tədbirlər məcmusu və bu tədbirlərin risklərə ehtimal olunan təsiri;
5.3.9. sənədin nömrəsi və imzalanma tarixi;
5.3.10. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

5.4. Bu Qaydaların 5.2-ci bəndində qeyd olunan məlumatların və sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar istismarçıdan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi istismarçının razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya istismarçı tərəfindən təmin edilir.

5.5. Bu Qaydaların 5.2-ci bəndində qeyd olunan məlumatlarda və sənədlərdə çatışmazlıqlar olmadıqda, Agentlikdə sənədlər qeydə alındığı gündən sonra 15 (on beş) iş günü müddətində risklərin qiymətləndirilməsi nəzərə alınaraq əməliyyat icazəsinin verilməsi və ya bu Qaydaların 12-ci hissəsinə uyğun olaraq verilməsindən imtina edilməsi haqqında qərar qəbul edilir.

5.6. Təqdim edilmiş (bu Qaydaların 5.4-cü bəndinin müddəaları nəzərə alınmaqla) məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, Agentlik tərəfindən bu barədə istismarçıya 3 (üç) iş günü müddətində məlumat verilir. İstismarçı çatışmazlıqları aradan qaldırdıqda, məlumat və sənədləri təkrar təqdim etdikdən sonra müraciətə təkrar baxılır və əməliyyat icazəsinin verilməsi və ya verilməsindən imtina barədə müvafiq qərar qəbul edilir. İstismarçı çatışmazlıqları 5 (beş) iş günü ərzində aradan qaldırmadıqda müraciət baxılmamış saxlanılır.

5.7. Əməliyyat icazəsinin verilməsi haqqında qərar qəbul edildikdə istismarçıya bu Qaydaların 2 nömrəli əlavəsində göstərilən əməliyyat icazəsi, icazənin verilməsindən imtina edildikdə isə bu barədə qərar 3 (üç) iş günü müddətində təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Əməliyyat icazəsi ən çox 3 (üç) ay müddətinə verilir.

5.8. Əməliyyat icazəsində təqdim edilmiş risklərin qiymətləndirilməsinə uyğun olaraq Agentlik tərəfindən müəyyən edilmiş PUAS əməliyyatına, istismarçıya, PUAS əməliyyatının iştirakçılarına və PUAS-lara dair tələblər, şərtlər və məhdudiyyətlər qeyd olunur. İstismarçı PUAS əməliyyatını yalnız bu tələblərə, şərtlərə və məhdudiyyətlərə riayət etdikdə həyata keçirə bilər.

5.9. Əməliyyat icazəsini aldıqdan sonra istismarçı bu Qaydaların 5.2-ci bəndində qeyd olunan məlumat və sənədlərdə hər hansı bir dəyişiklik baş verdikdə bu barədə Agentliyə 5 (beş) iş günü ərzində məlumat (bu Qaydaların 5.4-cü bəndinin

müddəaları nəzərə alınmaqla) verməlidir. Müraciətə daxil olduğu gündən 15 (on beş) iş günü ərzində Agentlik tərəfindən baxılır və əməliyyat icazəsinə müvafiq dəyişiklik edilməsi və ya edilməməsi haqqında qərar qəbul edilir.

5.10. Əməliyyat icazəsi üçüncü şəxslərə ötürülə bilməz.

5.11. İstismarçı qəbul olunan qərardan və ya hərəkətlərdən (hərəkətsizlikdən) inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilər.

## 6. İstismarçı sertifikatı

6.1. İstismarçı sertifikatı yalnız hüquqi şəxslərə verilir. Hər bir hüquqi şəxsin eyni vaxtda yalnız bir istismarçı sertifikatı ola bilər. Bu Qaydaların 6-cı hissəsinin məqsədləri üçün istismarçı dedikdə hüquqi şəxs nəzərdə tutulur.

6.2. İstismarçı sertifikatının alınması üçün istismarçı aşağıdakı məlumatları və sənədləri şəxsən və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla Agentliyə təqdim etməlidir:

6.2.1. istismarçının adı, ünvanı, qeydiyyat haqqında dövlət reyestrindən çıxarışın surəti, elektron ünvanı və əlaqə nömrəsi;

6.2.2. istismarçının mərkəzlə əlaqə yaratdığını təsdiq edən arayış;

6.2.3. istismarçının PUAS əməliyyatlarının həyata keçirilməsi ilə bağlı fəaliyyətini, habelə bu Qaydalara uyğunluğunu təmin etmək üçün yerinə yetirdiyi müvafiq prosedurları özündə ehtiva edən istismarçının təlimatı;

6.2.4. istismarçının sahib olduğu PUA-ların qeydiyyat sertifikatlarının surəti;

6.2.5. istismarçının aidiyyəti şəxsi heyətinin siyahısı;

6.2.6. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

6.3. Bu Qaydaların 6.2-ci bəndində qeyd olunan məlumatların və sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar istismarçıdan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi istismarçının razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya istismarçı tərəfindən təmin edilir.

6.4. Bu Qaydaların 6.2-ci bəndində qeyd olunan məlumatlarda və sənədlərdə çatışmazlıqlar və bu Qaydaların 12-ci hissəsi ilə müəyyən edilən hallar olmadıqda, Agentlikdə sənədlər qeydə alındığı gündən sonra 60 (altmış) iş günü müddətində istismarçının təlimatı təsdiq edilir və müfəttiş yoxlaması təşkil edilir.

6.5. Təqdim edilmiş (bu Qaydaların 6.3-cü bəndinin müddəaları nəzərə alınmaqla) məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə Agentlik tərəfindən bu barədə istismarçıya 3 (üç) iş günündən gec olmayaraq məlumat verilir. İstismarçı çatışmazlıqları aradan qaldırdıqda, məlumat və sənədləri təkrar təqdim etdikdən sonra müraciətə təkrar baxılır və istismarçı sertifikatının verilməsi və ya verilməsindən imtina barədə müvafiq qərar qəbul edilir. İstismarçı çatışmazlıqları 10 (on) iş günü ərzində aradan qaldırmadıqda müraciət baxılmamış saxlanılır.

6.6. Bu Qaydaların 6.4-cü bəndində qeyd olunan müfəttiş yoxlamasının nəticəsi olaraq Agentlik yoxlama bitdiyi gündən 10 (on) iş günü müddətində istismarçıya müfəttiş yoxlamasının nəticələrini özündə ehtiva edən hesabatı təqdim edir. Bu hesabat müfəttiş yoxlaması zamanı aşkar edilmiş bütün nöqsanları özündə əks etdirir.

6.7. Müfəttiş yoxlaması zamanı nöqsan aşkar edilmədikdə, istismarçıya 2 (iki) il müddətinə Agentlik tərəfindən bu Qaydaların 3 nömrəli əlavəsində göstərilən istismarçı sertifikatı təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

6.8. Müfəttiş yoxlaması zamanı nöqsan aşkar edildikdə, istismarçı 15 (on beş) iş günü ərzində hər bir nöqsan üzrə əsas səbəbi və nöqsanın aradan qaldırılması üçün tələb olunan müddəti göstərməklə düzəldici tədbirlər planını (bundan sonra – plan) Agentliyə təqdim etməlidir. İstismarçı bu planı tələb olunan müddətdə təqdim etmədikdə müraciət baxılmamış saxlanılır.

6.9. İstismarçı planı təqdim etdikdən sonra 10 (on) iş günü müddətində həmin tədbirlər planı Agentlik tərəfindən qiymətləndirilir. Qiymətləndirmə nəticəsində nöqsanlara dair tədbirlər yerinə yetirilmədikdə tədbirlər planı qəbul olunmur. İstismarçı Agentliyin rəylərinə əsasən 10 (on) iş günü müddətində planda düzəliş etməli və yenilənmiş tədbirlər planını Agentliyə təqdim etməlidir.

6.10. İstismarçı Agentlik tərəfindən təsdiq edilmiş planı Agentliklə razılaşdırdığı müddətdə (hər bir halda 3 (üç) ay müddətindən gec olmayaraq) icra etməlidir və razılaşdırılmış müddət ərzində bu barədə Agentliyə sübutedici məlumatları və sənədləri təqdim etməlidir. Bu məlumatlar və sənədlər təqdim edildikdən sonra müraciətə təkrar baxılır və sertifikatın verilməsi və ya verilməsindən imtina edilməsi barədə bu Qaydalara uyğun olaraq qərar qəbul edilir. İstismarçı planı vaxtında icra etmədikdə müraciət baxılmamış saxlanılır.

6.11. İstismarçı sertifikatını aldıqdan sonra istismarçı bu Qaydaların 6.2-ci bəndində qeyd olunan məlumat və sənədlərdə hər hansı bir dəyişiklik baş verdikdə bu barədə Agentliyə 5 (beş) iş günü ərzində məlumat (bu Qaydaların 6.3-cü bəndinin müddəaları nəzərə alınmaqla) verməlidir. Müraciətə daxil olduğu gündən 15 (on beş) iş günü ərzində Agentlik tərəfindən baxılır və istismarçı sertifikatında müvafiq dəyişiklik edilməsi və ya edilməməsi haqqında qərar qəbul edilir.

6.12. İstismarçı sertifikatının sahibi aşağıdakı tələblərə riayət etməlidir:

6.12.1. fəaliyyətinə uyğun lazımi iş mühitini yaratmalı;

6.12.2. Agentlik tərəfindən təsdiq edilmiş təlimatın tələblərinə riayət etməli;

6.12.3. uyğunluğun monitorinqi və uçuşların təhlükəsizliyinin idarə edilməsi daxil olmaqla, idarəetmə sisteminə malik olmalı;

6.12.4. fəaliyyətinə uyğun tələb olunan avadanlıqlara, alətlərə, cihazlara, ləvazimatlara və proqram təminatına malik olmalı;

6.12.5. fəaliyyətinə uyğun səriştəli şəxsi heyətə sahib olmalı;

6.12.6. keçirdiyi hər bir PUAS əməliyyatı üzrə məlumatları 3 (üç) il saxlamalı;

6.12.7. hər ay “B” kateqoriyasına aid keçirilmiş PUAS əməliyyatlarının siyahısını Agentliyə təqdim etməlidir.

6.13. İstismarçı sertifikatı üçüncü şəxslərə ötürülə bilməz.

6.14. İstismarçı qəbul olunan qərardan və ya hərəkətlərdən (hərəkətsizlikdən) inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilər.

## 7. PUAS əməliyyatlarına dair tələblər

7.1. PUAS əməliyyatları coğrafi zonaların şərtlərinə və məhdudiyyətlərinə uyğun həyata keçirilməlidir.

7.2. Nəzarət olunan hava məkanında və aerodromyanı ərazidə PUAS əməliyyatları mərkəzin icazəsi ilə həyata keçirilir. Mərkəzdən bu icazənin alınması üçün pilot (operator) aşağıdakı məlumatları və sənədləri əməliyyata başlamazdan ən azı 3 (üç) saat ərzində mərkəz tərəfindən müəyyən edilmiş elektron poçt ünvanına təqdim etməlidir:

7.2.1. istismarçının adı;

7.2.2. istifadə ediləcək PUA-nın qeydiyyat sertifikatının nömrəsi;

7.2.3. əməliyyatın başlama və başa çatma vaxtı;

7.2.4. əməliyyatın xüsusiyyətləri;

7.2.5. “B” kateqoriyasına aid PUAS əməliyyatı üçün istismarçı sertifikatının və ya əməliyyat icazəsinin surəti.

7.3. Mərkəz bu Qaydaların 7.2-ci bəndində qeyd olunan sənədləri aldıqdan sonra 3 (üç) saatdan gec olmayaraq uçuşa icazənin verilməsi haqqında qərar verir və bu qərar barəsində icazə üçün müraciət edən pilotu (operatoru) müəyyən edilmiş elektron poçt ünvanı üzərindən məlumatlandırır.

7.4. “B” kateqoriyasına aid PUAS əməliyyatı Agentlik tərəfindən təsdiq edilmiş istismarçının təlimatında və ya əməliyyat icazəsində qeyd olunan müvafiq tələblərə uyğun həyata keçirilməlidir.

7.5. PUAS yalnız istehsalçının təlimatlarında qeyd olunan tələblərə və uçuşa yararlı olduqda, habelə əməliyyatın təhlükəsiz həyata keçirilməsi üçün lazımi vəziyyətdə olduqda istismar oluna bilər.

7.6. Yarış, idman və əyləncə məqsədilə həvəskar modelçilər tərəfindən hazırlanan və ya yığılan model PUA ilə bağlı əməliyyatlar yalnız onların üzv olduğu model PUA klubuna və ya assosiasiyasına Agentlik tərəfindən icazə verildikdən sonra həyata keçirilə bilər. Bu icazənin alınması üçün model PUA klubları və ya assosiasiyaları aşağıdakı məlumatları və sənədləri şəxsən və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla Agentliyə təqdim etməlidirlər:

7.6.1. model PUA klubu və ya assosiasiyasının adı, ünvanı, qeydiyyat haqqında dövlət reyestrindən çıxarışın surəti, elektron ünvanı və əlaqə nömrəsi;

7.6.2. model PUA klubunun və ya assosiasiyasının mərkəzlə əlaqə yaratdığını təsdiq edən arayışı;

7.6.3. model PUA klubu və ya assosiasiyasının sahib olduğu PUA-ların qeydiyyat sertifikatlarının surəti;

7.6.4. model PUA klubu və ya assosiasiyasının üzvü olan şəxslərin siyahısı;

7.6.5. model PUA klubu və ya assosiasiyasının nizamnaməsinin surəti;

7.6.6.“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

7.7. Bu Qaydaların 7.6-cı bəndində qeyd olunan məlumatların və sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından

(qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar model PUA klubu və ya assosiasiyasından tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi model PUA klubu və ya assosiasiyasının razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya model PUA klubu və ya assosiasiyası tərəfindən təmin edilir.

7.8. Bu Qaydaların 7.6-cı bəndində qeyd olunan məlumatlarda və sənədlərdə çatışmazlıqlar olmadıqda, Agentlikdə sənədlər qeydə alındığı gündən sonra 15 (on beş) iş günü müddətində icazənin verilməsi və ya bu Qaydaların 12-ci hissəsi ilə müəyyən edilmiş əsaslarla bağlı icazənin verilməsindən imtina edilməsi haqqında qərar qəbul edilir.

7.9. Təqdim olunmuş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkarlandıqda (bu Qaydaların 7.7-ci bəndinin müddəaları nəzərə alınmaqla), Agentlik tərəfindən bu barədə model PUA klubu və ya assosiasiyasına 3 (üç) iş günü müddətində məlumat verilir. Model PUA klubu və ya assosiasiyası çatışmazlıqları aradan qaldırdıqda, məlumat və sənədləri təkrar təqdim etdikdən sonra müraciətə təkrar baxılır və model PUA klubları və ya assosiasiyalarına icazənin verilməsi və ya verilməsindən imtina barədə müvafiq qərar qəbul edilir. Model PUA klubu və ya assosiasiyası çatışmazlıqları 5 (beş) iş günü ərzində aradan qaldırmadıqda müraciət baxılmamış saxlanılır.

7.10. İcazənin verilməsi haqqında qərar qəbul edildikdə model PUA klubu və ya assosiasiyasına Agentlik tərəfindən 2 (iki) il müddətinə icazə məktubu və verilməsindən imtina edildikdə bu barədə qərar 3 (üç) iş günü müddətində təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

7.11. İcazə məktubunda Agentlik tərəfindən müəyyən edilmiş PUAS əməliyyatına, model PUA klubu və ya assosiasiyasına, PUAS əməliyyatının iştirakçılarına və PUAS-lara dair tələblər, şərtlər və onlara dair məhdudiyyətlər qeyd olunur. Model PUA klubu və ya assosiasiyası PUAS əməliyyatını yalnız bu tələblərə, şərtlərə və məhdudiyyətlərə riayət etdikdə həyata keçirə bilər.

7.12. İcazəni aldıqdan sonra model PUA klubu və ya assosiasiyası bu Qaydaların 7.6-cı bəndində qeyd olunan məlumat və sənədlərdə hər hansı bir dəyişiklik baş verdikdə, icazədə dəyişiklik edilməsi üçün 5 (beş) iş günü müddətində Agentliyə ərizə ilə müraciət edir. Agentlik ərizə daxil olduqdan sonra düzəlişlər edərək icazəni sahibinə və ya onun hüquqi varisinə təqdim edir, yaxud sifarişli poçt göndərişi vasitəsilə göndərir.

7.13. Model PUA klubu və ya assosiasiyası onun üzvləri tərəfindən bu Qaydaların tələblərinin yerinə yetirilməsini təmin etməlidir.

7.14. Model PUA klubu və ya assosiasiyası qəbul olunan qərardan və ya hərəkətlərdən (hərəkətsizlikdən) inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilər.

## 8. İstismarçının öhdəlikləri

8.1. İstismarçı keçirilən bütün PUAS əməliyyatlarına görə cavabdehdir və əməliyyatın təhlükəsizliyini, habelə bu Qaydaların tələblərinin yerinə yetirilməsini təmin etməlidir.

8.2. PUAS əməliyyatının nəticəsi olaraq aviasiya hadisəsi və ya insidenti baş verdikdə istismarçı bu barədə Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyaya 3 (üç) iş günü müddətində məlumat verməlidir. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiya Qanunun 17.8-ci maddəsi istisna olmaqla, araşdırma prosesinin həyata keçirilməsini təmin edir.

8.3. İstismarçı hər bir konkret PUAS əməliyyatı üçün PUAS əməliyyatının iştirakçılarını təyin etməli, bu şəxslər tərəfindən bu Qaydaların müvafiq tələblərinə uyğun olmasını təmin etməli və buna nəzarət etməlidir.

8.4. İstismarçı PUAS-a istehsalçının təlimatlarına uyğun olaraq texniki xidmətin göstərilməsinə görə cavabdehdir.

## 9. PUAS əməliyyatının iştirakçılarının öhdəlikləri

9.1. PUAS əməliyyatının iştirakçıları əməliyyat zamanı yaralanma, yorğunluq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, alkoqolun və güclü təsir göstərən digər maddələrin təsiri altında, habelə xəstəlik və ya digər oxşar səbəblərə görə vəzifələrini yerinə yetirməyə yararsız vəziyyətdə olmamalıdır.

9.2. PUAS əməliyyatının iştirakçıları bu Qaydaların, əməliyyat icazəsinin və istismarçının təlimatının aidiyyəti tələblərinə uyğun olmalıdırlar.

9.3. Pilot (operator) PUAS əməliyyatı zamanı istehsalçının və istismarçının təsdiq edilmiş təlimatlarına riayət etməlidir.

9.4. PUAS əməliyyatına başlamazdan əvvəl pilot (operator) aşağıdakıları təmin etməlidir:

9.4.1. elektron portal vasitəsilə yayımlanan interaktiv xəritədə əks olunan coğrafi zonalar və onlarla əlaqədar məhdudiyyətlər haqqında son məlumatların əldə edilməsi;

9.4.2. PUAS-ın istehsalçının təlimatlarında qeyd olunan tələblərə uyğun olması, habelə tam işlək və uçuşu təhlükəsiz yerinə yetirilməsi üçün lazımi vəziyyətdə olması;

9.4.3. əməliyyat ərazisinin və mühitin əməliyyatın təhlükəsiz şəkildə keçirilməsi üçün uyğun olması;

9.4.4. bu Qaydaların 7-ci hissəsində nəzərdə tutulmuş qaydada mərkəzdən icazənin alınması.

9.5. PUAS əməliyyatı zamanı pilot (operator) aşağıdakıları təmin etməlidir:

9.5.1. PUA-nın təhlükəsiz şəkildə idarə edilməsi;

9.5.2. PUAS əməliyyatının digər iştirakçıları ilə aydın və effektiv əlaqə qurulması;

9.5.3. istehsalçının təlimatlarına riayət edilməsi;

9.5.4. əməliyyat icazəsində və ya istismarçının təlimatında müəyyən edilmiş tələblərə əməl edilməsi;

9.5.5. bu Qaydaların 9.1-ci bəndində müəyyən edilmiş səbəblərə görə PUA-nı təhlükəsiz şəkildə idarə etməyə yararsız vəziyyətdə olmaması;

9.5.6. əməliyyatın davam etdirilməsi digər hava gəmilərinə, insanlara, heyvanlara, ətraf mühitə və ya əmlaka təhlükə törətdikdə əməliyyatın dayandırılması;

9.5.7. coğrafi zonalarla əlaqədar əməliyyat məhdudiyyətlərinə riayət edilməsi;

9.5.8. bu Qaydaların 7-ci hissəsində qeyd olunan tələblərə riayət edilməsi;

9.5.9. mərkəz tərəfindən verilən göstərişlərin dərhal yerinə yetirilməsi;

9.5.10. tərkibində fərdi məlumatlar, habelə kommersiya və ya dövlət sirri təşkil edən məlumatlar olan sənədlərin mühafizəsinə dair qanunvericiliyin tələblərinə riayət edilməsi.

9.6. PUAS əməliyyatı zamanı pilotun (operatorun) üzərində aşağıdakı sənədlər olmalıdır:

9.6.1. şəxsiyyət vəsiqəsi;

9.6.2. pilot (operator) şəhadətnaməsi;

9.6.3. "B" kateqoriyasına aid PUAS əməliyyatını keçirdikdə əməliyyat icazəsi və ya istismarçı sertifikatı;

9.6.4. model PUA klubu və ya assosiasiyası çərçivəsində PUAS əməliyyatını keçirdikdə bu təşkilatın üzvü olduğunu təsdiq edən arayış.

## 10. Pilota (operatora) dair tələblər

10.1. Pilot (operator) PUA-nı təhlükəsiz idarə etmək qabiliyyətinə malik olmalıdır.

10.2. Pilot (operator) istismarçının və istehsalçının aidiyyəti təlimatları ilə tanış olmalıdır.

10.3. "A" kateqoriyasına aid PUAS əməliyyatını həyata keçirən pilotun (operatorun) yaşı 16-dan az olmamalı və o, bu Qaydaların 11-ci hissəsində qeyd olunan pilot (operator) şəhadətnaməsinə malik olmalıdır.

10.4. "B" kateqoriyasına aid PUAS əməliyyatını həyata keçirən pilotun (operatorun) yaşı 18-dən az olmamalı və o, Agentlik tərəfindən təsdiq edilmiş istismarçının təlimatında və ya əməliyyat icazəsində qeyd olunan tələblərə uyğun olmalıdır.

10.5. Model PUA klubu və ya assosiasiyasının fəaliyyəti çərçivəsində PUAS əməliyyatını həyata keçirən və bu təşkilatın üzvü olan pilotun (operatorun) yaşı 14-dən az olmamalı və o, model PUA klubuna və ya assosiasiyasına Agentlik tərəfindən verilmiş icazədə qeyd olunan tələblərə uyğun olmalıdır.

## 11. Pilot (operator) şəhadətnaməsi

11.1. Pilot (operator) şəhadətnaməsinin alınması üçün pilot (operator) aşağıdakı məlumatları və sənədləri şəxsən və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla Agentliyə təqdim etməlidir:

11.1.1. adı, atasının adı, soyadı, ünvanı, elektron ünvanı, əlaqə nömrəsi, eləcə də şəxsiyyət vəsiqəsinin və ya əcnəbi (və ya vətəndaşlığı olmayan) şəxs olduqda bunu təsdiq edən sənədin surəti;

11.1.2. sağlamlıq haqqında arayış;

11.1.3. psixoloji və narkoloji dispanserlərin uçotunda olmama haqqında arayışlar;

11.1.4. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

11.2. Bu Qaydaların 11.1-ci bəndində qeyd olunan məlumatların və sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar pilotdan (operatordan) tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi pilotun (operatorun) razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya pilot (operator) tərəfindən təmin edilir.

11.3. Bu Qaydaların 11.1-ci bəndində qeyd olunan məlumatlarda və sənədlərdə çatışmazlıqlar olmadıqda, Agentlikdə sənədlər qeydə alındığı gündən sonra 30 (otuz) iş günü müddətində Agentlik tərəfindən imtahan təşkil edilir və imtahanın təşkili barədə qərar qəbul edildikdə 1 (bir) iş günü müddətində pilota (operatora) yazılı qaydada məlumat verilir.

11.4. Təqdim edilmiş (bu Qaydaların 11.2-ci bəndinin müddəaları nəzərə alınmaqla) məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, Agentlik tərəfindən bu barədə pilota (operatora) 3 (üç) iş günü müddətində məlumat verilir. Pilot (operator) çatışmazlıqları aradan qaldırdıqda, məlumat və sənədləri təkrar təqdim etdikdən sonra müraciətə bu Qaydaların 11.3-cü bəndinə uyğun olaraq təkrar baxılır. Pilot (operator) çatışmazlıqları 10 (on) iş günü ərzində aradan qaldırmadıqda müraciət baxılmamış saxlanılır.

11.5. İmtahan Agentlik tərəfindən müəyyən edilmiş tarix, vaxt və yerdə təşkil olunur.

11.6. İmtahan aşağıdakı mövzular üzrə keçirilir:

11.6.1. mülki PUAS-ların istismar qaydaları;

11.6.2. hava məkanından istifadə qaydaları;

11.6.3. aviasiyada təhlükəsizlik;

11.6.4. PUAS-lar haqqında ümumi biliklər;

11.6.5. uçuş performansı;

11.6.6. uçuş əməliyyatlarının təhlükəsizliyi və səmərəliliyi ilə bağlı pilotun (operatorun) bacarıqları ilə bağlı biliklər;

11.6.7. meteorologiya;

11.6.8. naviqasiya;

11.6.9. əməliyyat prosedurları;

11.6.10. fərdi və dövlət sirrinə aid məlumatların mühafizəsinə dair qanunvericilik.

11.7. İmtahan qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilir.

11.8. İmtahanda namizədlər tərəfindən 100 (yüz) test tapşırığının yerinə yetirilməsi nəzərdə tutulur. İmtahan sualları əvvəlcədən namizədlərə verilmir.

11.9. Namizədlərə imtahan testinin yerinə yetirilməsi üçün 2 (iki) saat 30 (otuz) dəqiqə vaxt ayrılır. Ayrılmış vaxt qurtardıqda imtahan başa çatmış hesab olunur. Namizəd imtahanı müəyyən edilmiş vaxtdan tez başa çatdıra bilər və bu zaman başa çatdırılmış imtahanın yenidən davam etdirilməsinə yol verilmir.

11.10. Texniki və digər səbəblərdən imtahanın davam etdirilməsi mümkün olmadıqda Agentlik tərəfindən müəyyən edilmiş tarix və vaxtda imtahan yenidən keçirilir.

11.11. İmtahanda namizədə təqdim edilən test tapşırıqlarına verilmiş hər bir düzgün cavab 1(bir) balla qiymətləndirilir. 100 (yüz) test tapşırığından ibarət imtahan testinin ən azı 75 (yetmiş beş) faizini düzgün cavablandırmış namizəd imtahanı müvəffəqiyyətlə vermiş hesab olunur.

11.12. Agentlik imtahana hazırlıq üçün zəruri olan təlim materiallarını rəsmi internet səhifəsində dərc edir.

11.13. İmtahanı müvəffəqiyyətlə vermiş şəxslərə 5 (beş) il müddətinə Agentlik tərəfindən bu Qaydaların 4 nömrəli əlavəsində göstərilən pilot (operator) şəhadətnaməsi təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

11.14. Pilot (operator) şəhadətnaməsi üçüncü şəxslərə ötürülə bilməz.

11.15. Şəhadətnamənin dəyişdirilməsi üçün aşağıdakı hallar əsas sayılır:

11.15.1. etibarlılıq müddətinin qurtarması;

11.15.2. sahibinin soyadı, adı və ya atasının adının dəyişdirilməsi;

11.15.3. şəhadətnamədə texniki səhvlərin olduğunun müəyyən edilməsi;

11.15.4. yararsız hala düşməsi və ya itirilməsi.

11.16. Bu Qaydaların 11.15-ci bəndi ilə müəyyən olunmuş hallar zamanı bu Qaydaların 11.1-ci bəndi ilə müəyyən olunmuş sənədlər Agentliyə təqdim edilir (bu Qaydaların 11.2-ci bəndinin müddəaları nəzərə alınmaqla) və şəhadətnamə yenidən verilir (bu Qaydaların 11.15.1-ci yarımbəndində müəyyən olunmuş hal zamanı şəhadətnamə ilkin müraciət qaydasına uyğun olaraq verilir).

## 12. Sənədlərin verilməsindən imtina

12.1. Bu Qaydalarda müəyyən olunmuş qeydiyyat sertifikatı, əməliyyat icazəsi, istismarçı sertifikatı, pilot(operator) şəhadətnaməsi və model PUA klubları və ya assosiasiyalarına icazə sənədlərinin (bundan sonra – sənəd) verilməsinə dair imtina aşağıdakı hallarda həyata keçirilir:

12.1.1. ərizədə və ona əlavə olunmuş sənədlərdə normativ hüquqi aktlara uyğun olmayan məlumatlar təqdim olunduqda;

12.1.2. ərizəçi sənədin verilməsi şərtlərini yerinə yetirmədikdə.

12.2. Sənədə dair imtina haqqında inzibati akt imtina hallarına istinad edilməklə əsaslandırılmalıdır.

## 13. Nəzarət və müfəttiş yoxlamalarının aparılması

13.1. Bu Qaydaların müvafiq tələblərinin yerinə yetirilməsinə nəzarəti aidiyyəti üzrə Agentlik həyata keçirir.

13.2. Agentlik sənədləri əldə etmiş istismarçılar tərəfindən bu Qaydaların tələblərinə riayət olunmasına Qanunun 61.2-ci maddəsinə uyğun olaraq nəzarət edir və bu məqsədlə verilmiş sənədlərin qüvvədə olduğu müddət ərzində müfəttiş yoxlamalarını təşkil edir.

13.3. Müfəttiş yoxlamasının nəticəsi olaraq Agentlik yoxlama bitdiyi gündən 10 (on) iş günündən gec olmayaraq istismarçıya müfəttiş yoxlamasının nəticələrini özündə ehtiva edən hesabat təqdim edir. Həmin hesabatda müfəttiş yoxlaması zamanı aşkarlanmış bütün nöqsanlar qeyd olunur.

13.4. Müfəttiş yoxlaması zamanı nöqsan aşkar edildikdə istismarçı hesabatı aldığı gündən 10 (on) iş günü müddətində hər bir nöqsan üzrə əsas səbəbi və nöqsanın aradan qaldırdılması üçün tələb olunan müddəti göstərməklə planı Agentliyə təqdim etməlidir. İstismarçı bu planı müəyyən olunmuş vaxtda təqdim etmədikdə Agentlik tərəfindən verilmiş sertifikatın, şəhadətnamənin və ya icazənin qüvvəsi dayandırılır.

13.5. İstismarçı planı təqdim etdikdən sonra 10 (on) iş günü müddətində Agentlik tərəfindən qiymətləndirmə aparılır və qiymətləndirmənin nəticəsi istismarçıya bildirilir. Təqdim edilmiş plan qəbul olunmadıqda, istismarçı Agentliyin rəylərinə əsasən 10 (on) iş günü müddətində həmin planda düzəliş etməli və yenilənmiş planı Agentliyə təqdim etməlidir.

13.6. İstismarçı Agentlik tərəfindən təsdiq edilmiş planlarını hər bir halda 3 (üç) ay müddətində icra etməli və bu müddət ərzində Agentliyə sübutedici məlumatları və sənədləri təqdim etməlidir. Bu məlumatlar və sənədlər təqdim edildikdən sonra müraciətə 10 (on) iş günü ərzində təkrar baxılır və müvafiq qərar qəbul edilir. İstismarçı planları vaxtında icra etmədikdə Agentlik tərəfindən verilmiş sertifikatın, şəhadətnamənin və ya icazənin qüvvəsi dayandırılır.

13.7. PUA-nın mülki dövriyyəsinə nəzarət “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verilməsi Qaydaları”na və digər normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

**“Mülki pilotsuz uçuş aparatlarının istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi Qaydaları”na**

**1 nömrəli əlavə**

Azərbaycan Respublikasının
Rəqəmsal İnkişaf və
Nəqliyyat Nazirliyi

[Agentliyin rəsmi emblemi]

Dövlət Mülki Aviasiya Agentliyi

Pilotsuz uçuş aparatının (PUA)
Qeydiyyat sertifikatı

№ PUAXXXXXXXXXXXXX

“__” _____ 20__ il

1. PUA-nın sahibi
2. PUA sahibinin ünvanı
3. PUA-nın istehsalçısı və modeli
4. PUA-nın kateqoriyası
5. PUA-nın seriya nömrəsi
6. Sertifikatın etibarlılıq müddəti

____________________________________

(səlahiyyətli şəxsin adı, soyadı, vəzifəsi və imzası)

M.Y.

**"Mülki pilotsuz uçuş aparatlarının istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi Qaydaları"na**

**2 nömrəli əlavə**

Azərbaycan Respublikasının
Rəqəmsal İnkişaf və
Nəqliyyat Nazirliyi

[Agentliyin rəsmi emblemi]

Dövlət Mülki Aviasiya Agentliyi

Əməliyyat icazəsi

№ _____

"__" _____ 20__ il

1. Pilotsuz uçuş aparatı sisteminin istismarçısı

2. Əməliyyatın məqsədi

3. Əməliyyatın başlama və başa çatma tarixləri

4. Coğrafi zona

5. Əməliyyatın iştirakçıları

6. Pilotsuz uçuş aparatlarının qeydiyyat sertifikatlarının nömrələri

7. Risklərin qiymətləndirilməsinə istinad

8. Əməliyyata, istismarçıya, əməliyyatın iştirakçılarına və pilotsuz uçuş aparatı sistemlərinə dair əlavə tələblər, şərtlər və məhdudiyyətlər

_______________________________________
(səlahiyyətli şəxsin adı, soyadı, vəzifəsi və imzası)

M.Y.

**“Mülki pilotsuz uçuş aparatlarının istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi Qaydaları”na**

**3 nömrəli əlavə**

Azərbaycan Respublikasının
Rəqəmsal İnkişaf və
Nəqliyyat Nazirliyi

[Agentliyin rəsmi emblemi]

Dövlət Mülki Aviasiya Agentliyi

Pilotsuz uçuş aparatı sistemlərinin
istismarçısı sertifikatı

№ ____

“__” _____ 20__ il

1. İstismarçının adı

2. İstismarçının ünvanı

3. Pilotsuz uçuş aparatlarının qeydiyyat sertifikatlarının nömrələri

4. Pilotlar (operatorlar)

5. Sertifikatın etibarlılıq müddəti

______________________________

(səlahiyyətli şəxsin adı, soyadı, vəzifəsi və imzası)

M.Y.

**“Mülki pilotsuz uçuş aparatlarının istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi Qaydaları”na**

**4 nömrəli əlavə**

Azərbaycan Respublikasının
Rəqəmsal İnkişaf və
Nəqliyyat Nazirliyi

[Agentliyin rəsmi emblemi]

Dövlət Mülki Aviasiya Agentliyi

Məsafədən idarə edən pilot (operator) şəhadətnaməsi

Pilotun (operatorun) fotosu

№ AZE-RP-[XXXXXXXXXXXX]

“__” _____ 20__ il

1. Pilotun (operatorun) adı, atasının adı və soyadı

2. Pilotun (operatorun) şəxsiyyət vəsiqəsinin və ya şəxsiyyətini müəyyənləşdirən digər sənədin nömrəsi

3. Şəhadətnamənin etibarlılıq müddəti

______________________________________

(səlahiyyətli şəxsin adı, soyadı, vəzifəsi və imzası)

M.Y.

______________________